*QƏRƏNFİL DÜNYAMİN QIZI*

BQa

# *MİLLİ TƏRƏQQİYƏ DOĞRU*

**BAKI – 2012**

Ч 612
Д 97

278826

**Elmi redaktor və məslə̄hətçi:** **ŞAMİL VƏLİYEV**
**f.e.d, professor**

**Qərənfil Dünyaminqızı Quliyeva. Milli tərəqqiyə doğru. (elmi-publisistik, ədəbi-bədii məqalələr toplusu), Bakı, ADPU-nəşriyyatı, 2012. 322 səh.**

***Filologiya üzrə fəlsəfə doktoru Qərənfil Dünyaminqızı ayrı-ayrı illərdə qələmə aldığı və ölkə mətbuatında dərc etdirdiyi bəzi elmi-publisistik məqalələrini oxucularının diqqətinə çatdırır. Əvvəlki kitablarında olduğu kimi bu topludakı məqalələrində də müəllif öz yazı tərzinə, üslubuna sadiqdir. Topludakı məqalələrin əksəriyyəti XX əsrin əvvəllərində yazıb-yaradan milli ruhlu jurnalistlərimizin, publisistlərimizin mətbuatımızın mədəniyyətimizin inkişafındakı rolundan, bəhs edir. Toplu geniş oxucu auditoriyası üçün nəzərdə tutulub.***

$© \frac{194876813412}{1957(ə)213215} - 2012$

**© Q.Dünyamin qızı**

# Ön söz

Mətbuatımızın tarixi ilə hələ tələbə olarkən maraqlanmağa başladım. 1987-ci ildə BDU-nun Jurnalistika fakültəsinin III kursunda oxuyarkən Tələbə Elmi Cəmiyyətinə üzv yazıldım. Cəmiyyətin xətti ilə elmi konfranslarda, yığıncaqlarda çıxış etdim. Hörmətli müəllimlərimdən prof. Şirməmməd Hüseynov və dossent Nəriman Zeynalov mənə ərəb əlifbasını öyrətdi. Beləliklə, həmin ildən bu günə kimi milli mətbuatımızın, onu yaradanların və yazarların fəaliyyəti, mətbu irsinin tədqiqi ilə məşğulam. Xüsusən Azərbaycan Xalq Cümhuriyyəti dövrünün mətbuatı, onun yazarları, dövrün ictimai-siyasi xadimləri, ədəbi-mədəni hadisələri, bu hadisələrə mətbuatın təsiri daha çox diqqətimi cəlb etdi. Azərbaycan mətbuatı üçün böyük əhəmiyyəti olan bu dövrün mətbuatı ilə bağlı zəngin materiallar, maraqlı faktlar əldə etmək üçün aylarla, illərlə arxivlərdə, kitabxanalarda, muzeylərdə oldum. Axtardım, aradım, oxudum, öyrəndim və bir daha əmin oldum ki, 1918-1920-ci illər Azərbaycan Xalq Cümhuriyyəti dövrünün mətbuatı Azərbaycan jurnalistikasının mühüm inkişaf mərhələsi olduğu üçün elmi ictimaiyyətin diqqətinə catdırılmalıdır. Bu münasibətlə böyük həvəslə və gücümün müqabilində işə başladım.

2005-ci ildə "Azərbaycan Xalq Cümhuriyyəti dövrünün jurnalistikası (1918-1920-ci illər)" mövzusunda namizədlik dissertasiyası müdafiə etdim. 2005-ci və 2011-ci illərdə "Cümhuriyyət dövründə Azərbaycan mətbuatı (1918-1920-ci illər)" adlı I və II hissədən ibarət kitab çap etdirdim. Topluda verilən məqalələrimin əksəriyyəti Azərbaycan Xalq Cümhuriyyətinin liderlərinin milli ruhlu mətbuatımızın yaranmasındakı fəaliyyətinə həsr edilib.

Müəllifdən

## QARABAĞ DƏRDİ KÖHNƏ DƏRDDİR

Hələ əsrin əvvəllərində milli mətbuatımızın inkişafı, maarifin təşəkkülü üçün xalqın ziyalıları böyük əmək sərf edirdilər. Belə ziyalılardan biri də 20-ci yüzilliyin əvvəllərində mətbuatımızın inkişafında səmərəli əməyi olan jurnalist Hacı İbrahim Qasımov idi.

Hacı İbrahim dövrünün tanınmış mətbuat işçisi, publisisti olub. Lakin uzun illər sovet mətbuatında o, burjua jurnalisti kimi qamçılanıb. Amma nə yaxşı ki, bəzi tədqiqatçılarımız onun zəhmətini etiraf etməyə məcbur olublar. Məsələn, mətbuat tarixi tədqiqatçısı, professor Nazim Axundov onun haqqında yazırdı: "H.İ.Qasımov liberal burjua görüşünü təbliğ etməyinə baxmayaraq Azərbaycan mətbuatı tarixində görkəmli iz buraxmış şəxsiyyətlərdəndir".

H.İ.Qasımov istər əməkdaşlıq etdiyi, istərsə redaktoru olduğu mətbu orqanlarında əqidəsinə sadiq qalmışdır. O, Azərbaycan xalqının azadlığını və müstəqilliyini hər şeydən üstün tuturdu.

Hacı İbrahim Qasımov "Molla Nəsrəddin" kimi klassik bir mətbu orqanında püxtələşmişdir. 1912-1913-cü illərdə "Kəlniyyət" adlı satirik jurnal buraxmış, "Zənbur" (1909-1910), "Babayi-Əmir" (1915-1916) satirik jurnalları ilə əməkdaşlıq edərək "Kəlniyyət" imzası ilə saysız-hesabsız felyetonlar, satirik yazılar çap etdirmişdir.

Onun jurnalistlik fəaliyyəti yalnız satirik orqanlardakı xidməti ilə bitmir. "Məlumat" (1911), "İqbal" (1914-1915), "Bəsirət" (1914-1920) kimi mətbuat tariximizdə özünəməxsus yeri və dəsti-xətti olan qəzetlərə redaktorluq etmişdir.

Əsrin əvvəllərində yazıb-yaratmasına baxmayaraq, onun müraciət etdiyi mövzular bu gün də öz aktuallığını

itirməmiş və həllini gözləyən problemlərlə zəngindir. Ona görə də H.İ.Qasımovun yaradıcılığı geniş tədqiqata layiqdir.

İstedadlı və uzaqgörən publisistin daha çox müraciət etdiyi mövzu milli məsələ idi. Bu gün də hamımızın ürək ağrısı ilə danışdığımız erməni-müsəlman məsələsində xarici dövlətlərin riyakarlığını, xüsusən Rusiyanın qızışdırıcı siyasətini publisist məharətlə, açıq-aşkar ifşa edərək oxucuya çatdırırdı

Ruslar din qardaşlarının Qafqaz regionunda törətdikləri hərc-mərcçiliyə göz yumaraq onların necə istəyirlər, elə də yaşamasına şərait yaradırdılar. Bu haqda H.İ.Qasımov redaktoru olduğu "Bəsirət" qəzetində yazırdı:"...O gün erməni milli şurasının qətnaməsini oxuyub çox güldüm. Əlbəttə, hamımıza məlumdur ki, bu qətnaməyə Ursiyyətdə rüsxət verilib və Ursiyyətdəkilər hökm ediyor ki, erməni qardaşlarının ürəkləri necə istiyor elə yaşamalıdırlar. Əcəba, nə üçün ?..".

Yaxud qəzetin 225-ci sayındakı yazıdan: "Ermənistan hökuməti Parisə sülh konfransına teleqram göndərib deyir ki, ay aman, qoymayın, azərbaycanlılar xoruzumuzu verəcəklər qoltuğumuza. Onlar dəstələr düzəldib üstümüzə qoşun göndərəcəklər". Qabaqdan gəlmişlik, "qara məni basınca, mən qaranı basım" prinsipi bu millətə dədə-babadan miras imiş.

Müəllif bu yazının sonunda bir məsələni daha qabarıq şəkildə bildirir ki, Zaqafqaziyada milli hökumətlər arasındakı ziddiyyətləri qızışdırmaqda (xüsusən erməni-müsəlman) Rusiya canfəşanlıq edir. Öz mənafeyini hər şeydən üstün tutan Rusiya bu yolla Zaqafqaziya respublikalarının müstəqilliyini boğur və onları özündən asılı vəziyyətə salaraq təbii sərvətlərinə sahib olur.

Ədibin milli məsələ ilə əlaqədar yazılarını oxuduqca onun uzaqgörənliyinə heyran qalmaya bilmirsən. Qəzetinin

1919-cu il 12 iyul tarixli 237-ci sayında "Yenə erməni-müsəlman məsələsi" sərlövhəli publisistik yazıda uzun illər bu problemin həll olunmayacağına işarə edərək yazırdı: "Dünya bir xarabazara çevrildi. Sonra sülh konfransı yapıldı...Bunlar həpsi oldu. Yalnız bir şey qaldı, o da erməni-müsəlman məsələsidir ki, qurtarmadı. Neçə gündür ki, parlamanda Qarabağ məsələsi müzakirə edilməkdədir. Amma nə fayda...?".

Səksən il öncə qələmə alınan yazı bu gün də öz aktuallığını, müasirliyini itirməyib. Əsrin əvvəllərində tüğyan edən bu problem indi də həllini gözləyir. H.İ. Qasımov bu problemə həsr etdiyi bütün yazılarında dönə-dönə qeyd edir ki, bu problemin həlli üçün Azərbaycan xalqına yalnız milli birlik lazımdır. Bir millət kimi varlığımızı, mənliyimizi sübut etmək üçün mübarizə etməli, bir parça çörək üçün nə Rusiyanın, nə də digər xarici dövlətlərin köləsinə çevrilməməliyik.

Bu gün Qarabağ problemi ilə bağlı saysız-hesabsız əsərlər, publisistik məqalələr yazılır. Amma unutmayaq ki, təkcə yazmaqla iş bitmir, Azərbaycan xalqı birdəfəlik bu məsələni həll etmək üçün soykökünə, tarixinə, birliyinə dönməlidir. Bunun üçün isə ona sözdə yox, işdə birlik lazımdır.

**"Xalq" qəzeti, 5 sentyabr 1999-cu il.**

## ƏSRİN ƏVVƏLLƏRİ VƏ SONU: oxşarlıq...*bu qədər*?

Hərdən bizə elə gəlir ki, yaşadığımız bu zamanda hər şey təzələnib və yaxud da hadisələr öz axarını itirib. Əslində belə deyil. Gördüklərimizin əksəriyyəti əsrin əvvəllərində baş verən hadisələr idi. Vidalaşmağa hazırlaşdığımız iyirminci yüzilliyin 1918-1920-ci illəri Azərbaycanın ictimai-siyasi həyatında çox təlatümlü bir dövr idi. Başda Rusiya

olmaqla bir neçə xarici dövlətlər Azərbaycanın təbii sərvətlərinə göz dikərək öz aralarında bölüşdürmək niyyətini gizlətmir, əksinə açıq-aşkar mübarizə aparırdı.

Sözsüz ki, belə bir məsələyə həmin illər nəşr olunan milli mətbuatımız da biganə qala bilməzdi və qalmadı da. Belə mətbuat orqanlarından biri də "Zənbur" (1919) satirik jurnalı idi.

Əvvəlcədən qeyd edək ki, əsrin əvvəllərində "Zənbur" adlı iki satirik jurnal nəşr olunub. Onun birincisi haqqında ("Zənbur",1909-1910) mətbuat tədqiqatçılarımız çox yazıblar. İkincisi ("Zənbur", 1919) haqqında isə bu sətirlərin müəllifi ilk dəfə 1998-ci ildə BDU-nun "Dil və ədəbiyyat" jurnalında məlumat vermişdir.

"Zənbur"dakı (1919) satirik yazılarla yanaşı, rəngli karikaturalar da ideya etibarilə milli, demokratik məzmuna malik idi. Ona görə də karikaturalar həcm etibarilə jurnalın yarısını tuturdu. Bu da təsadüfi deyildi. Mətbuatımızın görkəmli tədqiqatçısı Nəriman Zeynalovun hələ 1959-cu ildə "Satiranın gücü ilə" sərlövhəli məqaləsində yazdığı kimi, oxucunun səviyyəsinin hələ aşağı olduğu zamanda karikatura ən təsirli vasitə hesab olunurdu. Diqqəti cəlb edən karikaturalar həm Azərbaycan xalqının həyatını, onun üzləşdiyi problemləri, həm də beynəlxalq hadisələri məharətlə əks etdirirdi.

Böyük siyasi və ictimai əhəmiyyəti olan bu rəsmlərin əksəriyyəti istedadlı rəssam Əzim Əzimzadəyə məxsusdur. Qüdrətli fırça ustası "Zənbur"a kimi, "Molla Nəsrəddin", "Bəhlul", "Tuti", "Məzəli" kimi bir çox satirik jurnallarda böyük sənət yolu keçmişdir. "Zənbur"da artıq püxtələşmiş bir rəssam kimi çıxış edirdi. Burada verilən rəsmlərin 70-dən çoxu onundur. Yeri gəlmişkən, maraqlı bir faktı qeyd etmək yerinə düşərdi ki, başqa mətbuat orqanlarında "Əzim",

"Çujoy", "Neon", "Aslan", "Avropalı rəssam" kimi imzalarla çıxış edən rəssam "Zənbur"da yalnız açıq "Ə.Əzimzadə" imzası ilə çap olunub. Öz dövrünün problemlərini açıq-aydın göstərən rəssam aktual və siyasi mövzulara daha çox müraciət edirdi.

Qeyd edək ki, "Zənbur"da bu mövzulara müraciət edən yalnız Ə.Əzimzadə deyil, bütün "Zənbur"çular idi. Onlar, Azərbaycanda milli-azadlıq hərəkatını boğmaq, onun milli mənliyini məhv etmək və təbii sərvətlərinə sahib olmaq istəyənlərin iç üzlərini açıb ifşa edirdilər.

Bu mövzuların ən böyük əhəmiyyəti ondadır ki, həmin mövzular bu gün də aktuallığını itirməyib və 90 il bundan əvvəl yazılmağına baxmayaraq, bugünkü hadisələrlə həmahəngdir. İstər XX əsrin əvvəllərində, istərsə də sonunda, fərqi yoxdur. Şimal qonşumuz daima Qafqazın, xüsusən Azərbaycanın təbii sərvətlərinə sahib olmaq üçün hər cür vasitələrə əl atıb. Bəs nəticədə biz nə etmişik?! Dahi M.Ə. Sabir demiş: "***Dindirir əsr bizi, dinməyirik***". ***Niyə? Nə üçün, niyə hər şeyi şəxsi maraqlarımıza qurban veririk?***

Millət necə tarac olur-olsun, nə işim var?
Düşmənlərə möhtac olur-olsun, nə işim var?

–deyərək hər şeyi pulla, hətta məsləkimizi də alıbsatmaqla qiymətləndiririk.

Yadıma Sabir məktəbinin yetirməsi olan Səməd Mənsurun 1914-cü ildə "Tuti"də Sabirin "Satıram"şerinə yazdığı bənzətmədən sonuncu misralar düşdü:

Neçə illər çalışıb yığdıq ələ,
İndi mən onları tək-tək satıram,
Gəl-gəl, ay müştəri, **MƏSLƏK** satıram.

Deməli, əsrin əvvəllərində də, sonunda da məsləkini, amalını, millətini hərraca qoyanlar olub!

Təpədən dırnağa vətənpərvər mərhum şairimiz M.Araz belə daş qəlbli, biganə insanlara qarşı üsyankarcasına deyirdi:

Səndən ötən mənə dəydi,
Məndən ötən sənə dəydi.
Məndən, səndən ötən zərbə
Vətən, vətən, sənə dəydi.

Bu vətənin dərdlərinə biz məlhəm olmasaq, kim olacaq? Sabah bu vətən, bu torpaq bizi öz qoynuna alacaqmı?! Qayıdaq yenə əsrin əvvəllərindəki mətbuatımıza. Çünki 90-il bundan əvvəl yazılanlar bugünümüzlə o qədər səsləşir ki, sanki onu bu gün yazıblar.

"Molla Nəsrəddin"çi şair Bayraməli Abbaszadə 1918-ci ildə "Şeypur" satirik jurnalının 28 dekabr tarixli 11-ci sayında "Əsgər" adlı şerində vətənin dar günündə oğlanlarını əsgərlikdən yayındıranların dili ilə deyirdi:

Qoymaram balamı əsgərligə getsin,
Əsgər gedib öz gününü-ömrünü cürütsün,
Təkcə O, gərəkdirmi vətən dadına yetsin,
Kef nə olduğunu şimdi bilir, qoy O, kef etsin.

Bu bir parça şer bu günümüzün reallığını əks etdirmirmi?! Yaxud "Zənbur" satirik jurnalının 17-ci sayında çap olunan Abbas Səhhətin "Millətə nə üçün verim öz malımı?" satirik şerindən:

Millət üçün bircə qəpik verməṛəm,
Oğluma qurban edərəm malımı,
Əsgər edim oğlumu dildarımı.
Mən vətənə ölsəm, oğul verməṛəm,
Millətə etməm bu fədakarımı.

İstər "Zənbur"da, istərsə də "Şeypur"da siyasi məna kəsb edən satirik şerlərlə yanaşı, Azərbaycan xalqının mənəviyyatına, adət-ənənəsinə yad olan əyyaşlıq, qumarbazlıq kimi

murdar halları ifşa edən rəsm və karikaturalara da geniş yer verilib.

"Kazinoda" adlı karikatura da bu günümüzlə səsləşir. Belə ki, boynu yoğun, şişman bir millət vəkili gecə saat üçdə sərxoş halda kazinoda çoxlu pul uduzub əsəbi vəziyyətdə evinə gəlir. Ərini bu vəziyyətdə görən qadın sadəlövhcəsinə soruşur: "Ay kişi, gecənin bu vədəsi hardasan?"

Kişi güclə divardan tutub: "Ay arvad, harada olacam, millətin dərd-sərini həll edirdik"–deyə qızarmış gözlərini arvadına zilləyir."Bakıda xəfiyyə polisində" adlı karikatura isə son illər polis haqqında xalqın dilində əzbər olan bir cümləni xatırladır: "Allahım, məni polisin şərxatasından qoru!".

Hörmətli oxucu! Əslində bu məqalə redaksiyaya yuxarıda təqdim etdiyim kimi verilmiş, redaksiyada isə qısaldılaraq çap edilmişdir.

**"Xalq" qəzeti, 24 oktyabr 1999-cu il.**

## "QAPIMIZDA BÖYÜYƏNLƏR" VƏ ÇÖRƏYİMİZİN DUZU

"525-ci qəzet"də dərc olunmuş "Moskvadakı azərbaycanlıların əməllərindən xəcalət çəkirdim" sərlövhəli müsahibəni oxumasaydım, bəlkə də bu mövzuya müraciət etməzdim. "Rusiyadakı həmvətənlərimizin mədəni səviyyəsi çox aşağıdır. Azərbaycanlıların Moskvada törətdikləri əməllərə görə xəcalət çəkirdim"–fikrini söyləyən Azərbaycanın Rusiyadakı sabiq səfiri Hikmət Hacızadə müsahibəsində bildirir ki; "rus hökuməti azərbaycanlılara qarşı heç də pis münasibətdə deyil və boş hay-küy qaldırmağına dəyməz".

Unutmayaq ki, tarixən rusların azərbaycanlılara münasibəti birmənalı olub. Bu, əsrin əvvəllərində də belə olub, indi də. Bunu əsrin əvvəllərində görən, söyləyən olub, bu gün də. (XX əsrin əvvəllərində Bakıda çap olunan mətbuat

orqanlarında bu faktı təsdiq edəcək yüzlərlə məqalə və faktlar var. Bunlar tarixdir. Tarix isə unudulmur). 1906-cı ildə Rusiyanın ilk parlamentinin birinci Dövlət Dumasının tribunasından gəncəli millət vəkili İsmayıl xan Ziyadxanov cəsarətlə deyirdi: "Zaqafqaziya torpaqları yüz il bundan əvvəl ruslar tərəfindən işğal edilmiş, bu yüz il içində biz müsəlmanlar əsir müaməlsəsi görmüş, bu sifətlə hər təqibata məruz qalaraq hər haqq və hüquqdan faydalanmaz kölə vəziyyətinə endirilmişik". Uzun illər ağrısını çəkdiyimiz və bu gün də sağalmaz bir bəlaya çevrilən Qarabağ problemini də Rusiya hökuməti yaratmayıbmı?! Əsrin əvvəllərində də, bu gün də ermənilləri silahlandıran, aranı qızışdıran ruslar deyilmi?! Bunu sübut etmək üçün isə istənilən qədər tarixi faktlar var.

Hörmətli H.Hacızadəyə Azərbaycanın ədəbi, mədəni, ictimai-siyasi tarixində misilsiz rol oynamış, ölkəmizin azadlığı, müstəqilliyi yolunda son nəfəsinədək çalışmış Üzeyir bəy Hacıbəylinin əsrin əvvəllərində "Kaspi" qəzetində yazdığı publisistik məqalələri (həmin əsərlər təbii ki, rus dilindədir) oxumağı tövsiyə edir, özümüz isə üzümüzü XX əsrin əvvəllərində çap olunan mətbuat orqanlarına və digər arxiv mənbələrinə tuturuq.

1906-cı ilin fevralında Çar Rus hökuməti Qafqaz canişini Vorontsov-Daşkova tapşırır ki, ermənilərlə azərbaycanlıların nümayəndəsini çağırıb onların arasında olan münaqişənin səbəbini öyrənsin.

Çanişin Azərbaycan nümayəndələrindən Əhməd bəy Ağayev və Əlimərdan bəy Topçubaşovu qəbul edir. Onlar canişinə bildirlər ki; "ermənilər zorla bizim torpaqlarımıza sahib olmaq istəyirlər. Buna görə də azərbaycanlılara qarşı qırğına əl atırlar. Hökumətin isə bu qırğına laqeyd qalması çox təəccüblüdür. Tələb edirik ki, bu barədə canişinlik ciddi tədbirlər görsün".

Nümayəndə heyətinin bu sözlərindən qəzəblənən canişinin nümayəndələrə son sözü bu olur ki; "Dövlət bu milli münaqişəyə qarışmayacaq, gedin, öz aranızda olan münaqişələri özünüz həll edin!".

Hər hərəkəti ilə ermeniləri dəstəkləyən canişin Voront sov-Daşkov (**onun arvadı Liza erməni idi**) 1909-cu ildə Çar II Nikolaya yazırdı ki: "**Ermənilər ən etibarlı rəiyyətlərdəndir. Xristian olduqları üçün bizə sədaqətlidirlər**".

1915-ci ildə isə Vorontsov-Daşkov Qafqaz cəbhəsi komandanlığına məktub yazaraq müraciət edir ki; "Qafqazda 1500 nəfər erməni könüllüsündən ibarət birləşmə yaradılmışdır. Cəbhəyə göndərmək üçün onları silahlandırmaq lazımdır".

Bu, əsrin əvvəllərində edilən müraciətdir. Bəs bu gün?! Hadisələrdə bir dəyişiklik varmı?! Əsla yox! Əsrin əvvəllərində qurduğumuz dövlət və cərəyan edən hadisələr arasında oxşarlıq nə deyir, bizi niyə oyatmır?

Bu gün də Ermənistana külli miqdarda silah verən Rusiya deyilmi? Bu əməlləri alovlu publisist Ömər Faiq Nemanzadə daha açıq, kəskin qamçılayırdı: "Bizim aramızda bir qisim adamlar var ki, hər boş sözə bir-iki söz qoşub zurnasını çala-çala gəziyor və camaatı dəng ediyor ki, nə var nə var Qarabağda Azərbaycan qulluğunda olan rus nümayəndəliyi ermənilərə çox can-başla qulluq ediyor. Heç sözdümü ha? Balam, bu həmişə belə olub da. İt itin ayağını basmaz ki. Bir də ki, yadıma rəhmətlik nənəmin sözü düşdü. Rəhmətlik deyərdi ki: "Bizim qapıda böyüyüb, özgə qapısında nə hürürsən?!".

Müəllifin "Nə yazım" felyetonundan: "Əgər yazsam ki, İrəvan mahalında müsəlman kəndlərini ermənilər qarət edib, yandırıb, **ərkəklərini öldürüb, övrətlərini də özləri üçün aparıb**, deyəcəksiniz ki, bu köhnə əhvalatdır. Yazsam

ki, Bakıda müsəlmanlar erməni qızlarını özlərinə övrət edir, yenə deyəcəksiniz ki, bu da köhnə əhvalatdır".

Bu sözlər də 80 il bunda əvvəl "Zənbur" (1919) satirik jurnalında yazılıb. Uzun illər keçməsinə baxmayaraq hadisələrdə bir dəyişiklik varmı? Bu gündə erməni müsəlman kəndlərini qarət edir, bu gün də erməni qızları məmləkətimizdə kef edirlər və bu gün də bu problemi həll olunmağa qoymayan Rusiya deyilmi?

Burada yadıma 80 il bundan əvvəl "İstiqlal" qəzetinin 3 may 1919-cu il tarixli sayında dərc edilmiş "Ruslar və Azərbaycan" sərlövhəli məqalə düşdü. Məqalədən bir parçanı olduğu kimi nəzərinizə çatdırıram: "Hamıya rusların və rus məmurlarının Gürcüstandan qovulmaları məlumdur. Gürcüstandan qovulan rus məmuru və zabitləri ya Azərbaycana gəlməli, ya Rusiyaya və ya Ermənistana getməlidirlər. Başqa bir yol yox idi. Çünki, Rusiyaya getmək cəhənnəmə getmək kimi bir şey idi. Heç bir ağıl sahibi özünü diri-diri oda atmaz. Gürcüstandan qovulan ruslar Azərbaycana töküldülər. Camaat arasında bunların Azərbaycana gəlməyinə bir narazılıq var idi və bir çox dedi-qodulara səbəb oluyordu. Fəqət Azərbaycan hökuməti alicənablıq göstərdi, həqlərində yaxşı rəftar etdi. Ruslar Qafqaziyanın başqa yerlərində görmədikləri səadət və rahatlığı Azərbaycanda gördülər... Fəqət digər tərəfdən müsafir olaraqa gəlmiş ruslar Azərbaycan hökumətinə qarşı dedi-qodulara, münasibətsiz tənqidlərə, təhriklərə başladılar. İstiqlalımız əleyhinə sözdə və digər işdə işə başladılar".

Belə yerdə deyiblər ki: "Özümə yer edim, gör sənə nə edim". Nə yaxşı tarix, zaman, kimin kim olduğunu gec də olsa aşkara çıxarır. Azərbaycanlıları daim rüşvətxorluqda, mənəviyyatsızlıqda günahlandıran Rusiya haqqında keçən əsrin otuzuncu illərində gənc rus yazıçısı Qoqol "Müfəttiş"

əsərində qanunsuzluğun, ədalətsizliyin, bürokratizmin, birinci növbədə, rüşvətxorluğun Rusiyada dərin kök saldığını ifşa edirdi.

Həmin vaxt Azərbaycan haqqında "Kafkazskiy kalendar" yazırdı: "Burada yerli sakinlərdən heç kəs, hətta gecələr belə evlərinin qapılarını bağlamır, bu barədə düşünmürlər də, qaravul söhbəti, alıb-vermək söhbəti buralarda yoxdur".

**Bütün bu sadaladıqlarımız həqiqətdir. Həqiqət isə çox zaman bizə məlum və naməlum səbəblərdən söylənilmir.**

**"Xalq" qəzeti, 2 noyabr 1999-cu il.**

## AZADLIĞA GEDƏN YOLUN TANIŞ DÖNGƏLƏRİ

Bugünkü kimi, XX əsrin əvvəllərində nəşr edilən milli mətbuatımız da məmləkətimizdə cəryan edən siyasi-ictimai hadisələrə biganə qala bilməmişdir. Xüsusən də milli azadlıq, müstəqillik mövzusu milli mətbuatda daha qabarıq verilmişdir.

1918-ci il dekabrın əvvəllərində Bakıda Azərbaycan parlamentinin iclasını keçirmək nəzərdə tutulduğu bir vaxtda bəzi mətbuat orqanları yazırdı ki:"bəzi cəmiyyət və partiya nümayəndələri bu parlamentdə iştirak etməyəcəklər".

Onların nə üçün bu parlament iclasında iştirak etmək istəmədiklərini Üzeyir Hacıbəyli "Azərbaycan" qəzetinin 22 may 1918-ci il tarixli sayında belə bəyan edirdi: "Gözlər var ki, dünənə qədər əsir və qul olan bir millətі bu gün azad və sərbəst görmək istəmirlər; qulaqlar var ki, lal edilmiş bir millətin dilinin bu gün açılıb sözləməsini eşitmək istəmirlər; qəlblər var ki, bir əsrdən artıq məhkum qalan bir millətin bu gün müstəqil və azad olmasını qəbul etmək istəmirlər".

Həmin vaxt Bakıda olan Rus Milli Şurası ingilis komandanlığının köməyi ilə parlamentin açılışını pozmağa cəhd etdi. Bundan istifadə edən Erməni Milli Şurası da ixtiyarlarında olan hərbi hissələrə arxalanaraq Bakıda qarışıqlıq salmağa başladı. Onların müttəfiqi olan general Tomson parlamentin açılmasına mane olsa da, sonra onun təşkilinə göz yummaq qərarına gəldi. Hökumətin parlamentinin ilk təsis iclası 1918-ci il dekabrın 7-də Bakıda (H.Z.Tağıyevin qız məktəbində, indiki Əlyazmalar İnstitutunun binasında) oldu. Parlamentin ilk iclasını Azərbaycan Milli Şurasının sədri M.Ə.Rəsulzadə açdı və təbrik nitqi söylədi. Həmin iclasda iştirak etmiş Üzeyir bəy "Azərbaycan"ın 10 mart 1910-cu il sayında yazırdı: "Məmməd Əmin nitqi-iftitahiyyəsində bu üç rəngin: türkləşmək, islamlaşmaq və müasirləşmək amalı əlamətindən ibarət olduğuna işarə ilə "bu bayraq endirilməz!"-dedikdə bütün məclis ayağa qalxıb əl çala-çala bayraqları salamlarkən təəssürati-fövqəladəmdən başımın tükləri biz-biz dururdu".

"Azərbaycan"dan əvvəl həmin gün haqqında "Şeypur" (1918-1919) satirik jurnalı bu hadisəyə münasibətini belə bildirdi: "Şükürlər olsun. Bu gün çoxdandır arzusunda olduğumuz Azərbaycan parlamanı açılır. Bizləri gözü götürməyənlər, hökumətimizi məsxərəyə qoyan firqələr, partiyalar, cəmiyyətlər parlamanımıza nümayəndə göndərmək istəmədilər. Deməli, bizi "priznavat" eləmədilər. Əcəba. Bakıda Azərbaycan parlamanı açıldı. Bu münasibətlə Bakıda olan rus və ermənilər böyük nümayiş yaparaq qatışıqlıq salmaq istədilər. Xoşbəxtlikdən onlar nə qədər nümayişlər, qatışıqlıqlar salsalar da, parlament öz iclasını keçirdi".

Ümumiyyətlə, 1918-1920-ci illərdə mövcud olmuş Azərbaycan Demokratik Cümhuriyyəti öz banilərinin səyi ilə düşünülmüş siyasətin subyektinə çevrilə bilmişdi. Azər-

baycan Respublikası bir çox xarici dövlətlərlə diplomatik əlaqələr yaratdı. Bakıda ABŞ, İngiltərə, Fransa, Türkiyə, İtaliya, İran, İsveçrə, Polşa, Yunanıstan, Danimarka dövlətlərinin diplomatik nümayəndələri və konsulluqları fəaliyyət göstərirdi. Respublikamızın da xarici diplomatik nümayəndəlikləri Türkiyə, İran, Gürcüstan, Ukrayna, Krım və Donda açılmışdı. 1920-ci ilin aprel ayında diplomatik nümayəndəliklərinin təsis olunması haqqında qanun layihəsi qəbul etmişdi.

Bu problemlə bağlı "Mühüm məsələlər" adlı məqaləsində Üzeyir bəy fikrini belə açıqlayırdı: "Biz Azərbaycanı Yevropaya və müttəfiq dövlətlərə indidən tanıtdırmalıyıq. Özümüzə məxsus tarixə, gözəl və xüsusi bir ədəbiyyata, sənayeyi-nəfisəyə malik olduğumuzu onlara bildirməliyik. Dilimiz firəng dili Yevropada olan kimi, bütün Qafqazda ümumi bir dil olduğunu isbat etməliyik. Musiqimizin ümumi Qafqaz millətlərinə zövqvə ləzzət ruhu verən bir musiqi olduğunu bildirməliyik. Onlara Yevropa şüəralarından geri qalmayacaq şairlərimizi, müsənniflərimizi, yazıçılarımızı, alimlərimizi birbəbir nişan verməklə, xüsusi bir mədəniyyətə malik olduğumuzu əyan və aşkar etməliyik...".

ADR-in xarici siyasət sahəsində də fəaliyyəti, ilk növbədə Azərbaycanın suverenliyinin Avropa ölkələri tərəfindən tanınmasına bir mənalı olaraq nail olmaq, qonşu dövlətlərlə münasibətləri qaydaya salmaq, xüsusən üç Zaqafqaziya respublikası arasında mübahisəli məsələləri həll etmək idi.

Yalnız Denikini darmadağın edildikdən sonra Antantanın Baş Şurası 1920-ci il yanvarın 11-də ADR-i tanıdı. Əslində, bu qərar Antantanın Azərbaycanı müdafiə etməyə hazır olmasından irəli gəlmirdi. Çünki, həmin vaxt Qızıl Ordu Denikinin ordusunu sıxışdıra-sıxışdıra Zaqafqaziyanın

sərhədlərinə yaxınlaşırdı. Antanta isə Azərbaycanın tanınması aktı ilə Qızıl Ordunun irəliləməsini birtəhər dayandırmağa, Azərbaycanın müdafiəsi haqqında özünün saysız-hesabsız vədlərini, guya yerinə yetirdiyi barədə gözdən pərdə asmağa ümid bəsləyirdi. Əslində, O, Azərbaycana heç bir hərbi yardım göstərmək niyyətində deyildi.

1920-ci ilin aprelində Azərbaycan hökumətinin təqdimatı üzrə respublika parlamenti Azərbaycanın müstəqilliyini tanımış on ölkəyə göndəriləcək diplomatik nümayəndələrin statusuilə yanaşı tərkibini təsdiq etdi. Bu vaxt artıq 16 ölkənin səlahiyyətli nümayəndələri Azərbaycanda fəaliyyətə başlamışdı.

Maraqlıdır, görəsən, qonşu Rusiyanın ADR-in istiqlaliyyətinin tanınmasında mövqeyi nə idi? ADR-in mövcudluğunun əvvəlindən Rusiya onu tanımaq fikrində olmayıb. Səbəbi? Səbəbini "İstiqlal" qəzeti 5 fevral 1920-ci il sayında açıq-aydın yazırdı: "Rusiya sovet hökuməti Azərbaycanın istiqlalını tanıyormuş. Amma bu da Nərimanovun məktubunda varmış. Fəqət tağım məktublardan isə varsın Sovet Rusiyası apaçıq desin ki, mən sizin istiqlalınızı tanıdım. Nasıl olur, Antanta bunu sərih (açıq) və aydın bir surətdə deyə bilir, şura nümayəndəsi Çiçerin bu xüsusda daha sərih (açıq) söyləmiyor?

Bunda, əlbəət ki, bir iş vardır. Bunun səbəbini görməmək mümkün deyildir. Onu bizə yenə Nərimanov izhar eyləmiş, demişdir ki; "Rusiya zəhmətkeşləri Bakıdan, Bakının neftindən əl çəkməzlər, çünki səfil qalıyorlar. Onların səfalətini rəf (aradan qaldırmaq) edə bilmək üçün nefti içəcək deyiliz, doşab əvəzinə kəndilərinə satarız. Fəqət, yenə fəqət Bakı bizdə olmazsa, **Azərbaycan təşkil etməz, istiqlalımız ölür. Moskvadan ruslar köçə bilmədiyi kimi, Bakıdan da türklər köçə bilməzlər**".

Bu kimi səbəblərə görə Sovet Rusiyası hökuməti Azərbaycan hökumətinin dəfələrlə irəli sürülmüş müraciətinə məhəl qoymamışdır. Çünki Sovet Rusiyası bu yolla, vaxtı uzatmaqla, ADR-in devrilməsi üçün zəmin hazırlamağa, Azərbaycan bolşeviklərinə hakimiyəti ələ almaqda kömək etməyə çalışırdı".

Bir anlıq Azərbaycanın bugünkü beynəlxalq vəziyyətinə nəzər yetirək. Bu gün Azərbaycan müstəqil dövlət kimi bütün dövlətlərlə bərabərhüquqlu, qarşılıqlı surətdə faydalı əlaqələr saxlayır. Azərbaycan Birləşmiş Millətlər Təşkilatının, ATƏT-in, həm də Müstəqil Dövlətlər Birliyinin tərkibində fəaliyyət göstərir və dünyanın böyük dövlətləri ilə əlaqələrimizi daha da möhkəmləndirməyə can atır.

Hüquqi baxımdan Azərbaycan yenidən dövlət müstəqilliyini 1991-ci ilin sonunda elan edibdir. Ancaq dövlət quruculuğu prosesi çətin bir dövr, zaman, şərait içərisində keçib, 1995-ci ilin noyabrında ilk Konstitusiyanın qəbul olunması ilə tamamlanıb.

Biz bu illərdə Azərbaycanın dövlət müstəqilliyini qoruyub saxlamışıq, inkişaf etdirmişik. Azərbaycan tutduğu yolla inamla gedir. İftixarla deməliyik ki, bu gün Azərbaycanın dövlət müstəqilliyi artıq mövcuddur, dönməzdir. Onu daima yaşatmaq, qorumaq üçün müstəqilliyimizin ilk illəri olan 1918-1920-ci illərin təcrübəsinə dönə-dönə müraciət etməliyik. Gənc cümhuriyyətimizin yaranmasında Azərbaycan xalqının dövlətçiliyi əldə etmək yolunda, demokratik quruluş yaratmaq istiqamətində tarixi rolu böyükdür. Məhz tarixin təkrar olunmasından ehtiyat edərək, Azərbaycanda müstəqil və güclü bir dövlətin yaranmasını gözü götürməyənlər, necə olursa-olsun onu məhv etmək üçün, hər cür fitnə-fəsada, riyakarlığa əl atırlar. Bu azadlıq yolunda Tanrı bizə yar olsun!

**"Xalq" qəzeti, 7 aprel 2000-ci il.**